

*Nəcməddin MÜRVƏTOV*

# XƏYALLA XƏYALDA SÖHBƏTİM

*(Əvvəli ötən sayımızda)*

Nəhayət ki çalındı bizdən ötrü də “son zəng”,
Bu səsdəki çox sirli sevinc, qüssəli ahəng
Elə bil ki ayıldıq, yatmışdıq yuxudan kal,
Bir-birinin üzünə baxırdıq heyrətlə,lal.
Doğrudanmı ayrılır yollarımız bu andan,
Neçə illər həmişə can deyib, eşidən can,
Dost, doğmalar gedəcək hərəsi bir tərəfə
Bir yerdəyik beləcə, ay Allahım, son dəfə?
Əlvida deməsək də, ağlımızdan keçdi bu:
“Zaman görür işini”-danılmaz qanun,tabu.
Əzizikmiş heç demə necə biri-birinə,
Həm də hazır can verək digərinin yerinə.
Sözsüz-sovsuz ayrıldıq, gözümüzdən axdı yaş,
Ürəyində hərənin nədən ötrüsə bir “kaş”.

O il daxil oldum mən də kolleca,
Gündüzlər oxuyub, işləyib gecə,
Təmin eyləyirdim öz yaşamımı,
İşim, təhsilimdən razıydı hamı.
Anamdan aldığım öyüd-nəsihət,
Çatırdı dadıma hər işdə əlbət.
Saflıq, sadəliyim, səmimiyyətim
Səbəbdi artmağa dəyər, qiymətim.

Qəlbimi ovlayan o nazlı dilbər
Qəbul eyləsə də məhəbbətimi,
Sonralar köksümdə kədəri, qəmi
Yaşatdı, hicranı, acı həsrəti,
Olmadı qərarı biryolluq, qəti.
Yandım bu atəşdə, qovruldum, yandım,
Özümü dünyanın bədbəxti sandım.
Xəbərdardır bundan şəksiz anam da,
Olsa da çətində müdam yanımda,
Nə edə bilərdi, qaldı çarəsiz
Bundan çöhrəsinə kədər saldı iz.
Bilirdi mənasız təsəlliləri,
Diz çöküb yalvarıb göydə əlləri
Əlac diləyirdi Tanrıdan mənə,
Gündə neçə kərə hey dönə-dönə.
Bəzən etməməyə halımla peşman,
Birtəhər azdıram onda zənn, güman,
Şən,şux göstərərkən kefli özümü,
Baxışım deyərdi dürüst sözünü.
Qınardı yer-göyü anam, qınardı,
Sınardı mənimtək içdən sınardı.
Yaşım yetişmişdi, gərək Vətənə
Gedəydim xidmətə, böyük təntənə
Qurmuşdu atam ki, bənzəyən toya,
Davar, mal kəsmişdi bişmişdən doya,
Yaxın dost-tanışlar, qohum-əqrəba,
Vallah cəm olmuşdu bizə el-oba.
Çalan-oxuyan kim, deyib-gülən kim,
Üzlər, çöhrələrə sevincdi hakim.
Anamınsa gözü məndə idi təkcə,
Köksündə qürurla iztirab necə
Qarışmışdı sözsüz, duyurdum onu,
Yetişdi nəhayət məclisin sonu.
Ana-bala birgə qaldıq baş-başa,
Qəribə xahişim onu təlaşa
Saldı, dedim: “ Ana, əl-ayağıma həna yax”
Yaşımda bax bu çağıma
Qədər olmamışdı belə istəyim.
Sözsüz edəcəkdi hər nə diləyim
Etmişdi, etdi də onu o səhər,
Tutmuşdu boğazın, duyurdum qəhər.
Evdən məni yola saldığı zaman
Düşündüm qalmaya məndən nigaran,
Qolumu dolayıb onun boynuna,
Çəkib bir kənara, həyətdən yana,
Uzaqdan göstərib qəbiristanı,
Sevgimin oradır dedim məkanı.
Dəfn edib gedirəm biryolluq orda
Qoy rahat uyusun məzarda, gorda.
Səhvimdi, daha da oldu pərişan,
Bu halı elədi sinəmi şan-şan.
Beləcə başladı əsgərliyim də,
Vətənə and içmə mərasimin də.
Gəlib yetişmişdi atam,anam da,
Fəxrlə duralar burda yanımda.
Onlar gətirdiyi xeyli pay-para,
Yaman xoş gəlmişdi çox uşaqlara.

Çox-çox qayğıkeşdi komandirlərim,
İş-gücdə bacarıq ağlım, hünərim.
Onlarda çəkmişdi nəzər, diqqəti,
Vardı hər birinin mənə rəğbəti.
Hörmət qazanmışdım inam,etibar,
Bundan məxsusiydi mənimlə rəftar.
Ruhumdan istəklə olmağa öndə,
Hər işdə hər zaman elə bu yöndə.
Olurdu həmişə düşüncələrim,
Şəksiz xəbərdardı komandirlərim.
Dedim ki,onlara vermişəm qərar,
Arzumdu Xüsusi Təyinatlılar.
Cavabda dedilər bunu bil ki sən,
Azad olmalısan yüksək çəkidən.
Çox da ki, hər cürə uyğunluğun var,
Bax bundan bağlıdır üzünə yollar.
Dəyişib rejimi adət,vərdişi,
Yetmiş beş eylədim lap tez yüz beşi.
Heçdən yaranmaya nəsə maneyə,
Bu fikri demədim o vaxt kimsəyə.
Başlandı təlimlər,ağır sınaqlar,
Mərdlik, dözüm dərsi keçdik o çağlar.
Yoxdu bir kimsəyə güzəşt zərrəcə,
İnan fərqlənmirdi heç gündüz, gecə.
Hazır olmalıydıq hər yerdə, hər an,
Hər işdə lal-dinməz can qoymağa can.

Evlə danışırdım hərdən arada,
Anamda həyəcan, qorxu yarada,
Demirdim bircə söz, bircə kəlmə də,
Ondan öyrəndiyim nə var bölmədə.
Edirdim, uşaqlar zarafatyana,
"Ana" deyirdilər mənə "ay ana"...
Bircə gün dincəldik, elə o zaman,
Zəng vurub anama söylədim "yalan".
Dedim:"Əvvəlkitək təlimdəyik biz,
Hələ ehtiyatda durub dəstəmiz".
Dedi neçə qurban deyib adıma,
Tanrı kömək dura yetə dadıma.
Başlandı amansız döyüş günləri,
Allahım, görmədim orda nələri.
İrəli, irəli atırdıq hey can,
Yaşamla,ölümün arası bir an.
Qırırdıq, baxmırdıq ağı,bozuna,
Yağını, qaçırdı onun tozuna
Yetişmək olmurdu, ləzzət duyurduq,
Bəzən də savaşa elə uyurduq,
Dağ, daş titrəyirdi çəkəndə nərə,
Dönmüşdük şirə biz, ən qızğın nərə.
Dayaqdıq hər anda biri-birinə,
Hazırdıq ölməyə, inan yerinə
Hər bir silahdaşın, komandirlərin,
Adi deyildi bu hisslər, çox dərin
Hisslərdi, gəlməyən heç zaman sözə,
İstəkdi yanğılı, dönən od közə.
Gözümdə yoxdu yox zərrəcə qorxu,
Bundan narahatdı dostların çoxu.
Ötürdü bax belə döyüşdə günlər,
Azad olunduqca kəndlər, şəhərlər.
Uçurduq elə bil, qanadlanırdıq,
O böyük zəfərə çox inanırdıq.
Görsək də addımda ölümün üzün,
Yoxdu bizə fərqi gecə, gündüzün.
Vuruşda artırdı inad, əzmimiz,



Əsgər yoldaşımın yolu bir dəfə,
Bir neçə saatlıq bizim tərəfə
Düşmüşdü, zəng edib dedim anama,
Şirniyyat bişirib göndərsin, amma,
Sığmırdı ağlıma çatdırar bunu,
Yekə bağlamayla, mən görcək onu.
Heyrətdən çaşmışdım, aman, ay Allah,
Yatmayıb bu gecə, günahım,günah.
Sayıb zəng elədim təkrar mən yenə,
Minnətdarlığımı hey dönə-dönə
Bildirdim özümdən, yoldaşlarımdan,
Min yol söyləməklə "can-can" anam, "can".
Dilində duaydı onun hər kərə.
Səhəri keçməklə neçə dağ,dərə,
Şimşəktək düşmənin başında çaxdıq,
Savaşla Murovda zirvəyə qalxdıq.
Salmışdıq yağını yaman pis hala,
Qalaydıq biz burda alınmaz qala.
Bəli,yetişmişdi qisasa o gün,
Sevinc içindəydik hamı büsbütün.
Vardı şəhidlər də, yaralılar da,
Filmdi elə bil döyüş dağlarda.
Zirvədə eşitdik veribmiş qərar,
Ali Baş Komandan, gərək fitnəkar
Düşməni qandıraq bir yolluq daha,
Qoymayaq bu işi yetər, sabaha.

Hücumla getməyə daha irəli,
Əmr aldıq, Murovu enib deməli.
Bərpa etməliydik sıraları da.
Bir ruh yüksəkliyi vardı hamıda.
Başqa bölmə gəldi əvəzimizə,
Düşmənlə qalmağa burda göz-gözə.
Deyirdik ən öndə getməliyik biz.
Hər gün seyrəlsə də sıralarımız,
Əvəz şəhidlərə qalanlarımız
Daha çox olurdu şəksiz, fədakar,
Qan-qada etmirdi bizlərə yox kar.
Sanki qaya idik dönmüşdük daşa,
Gedirdik ölümə doğru birbaşa.

Yenə də öndəydik-komandirim, mən,
Təpənin arxası yamacda düşmən
İstehkamlarını tutaydıq gərək,
Bunu edəcəkdik yoxdu şübhə, şəkk.
Gedirdik torpağa hey sinə-sinə,
Ayıq düşdü yağı kol-kos səsinə.
Bir anda tuş gəldik güclü atəşə,
Yoxdu bir dalda yer yarayan işə.
Bildirdi komandir:”Tək yolumuz var,
Şığıyaq irəli, qorxudan onlar
Atıb qaçacaqlar orda silahı”,
Çağırıb köməyə uca Allahı,
Qalxaraq ayağa cumdu səngərə,
Batdım həmin anda buz soyuq tərə.
Başımda duyduğum güclü ağrıdan,
Anladım tezliklə verəcəyəm can.
Təəssüf hissiylə düşündüm heyhat,
Mənimçün burdaca bitəcək həyat.
Anam göz önünə gəldi xəyalda,
Bitirdim ömrümü bax belə halda.
Sonra nələr olub?-Yəqin bunu mən,
Deyərsən eşidəm sənin dilindən.

*(Davamı var)*